## Elektron vergi xidməti: şəffaflığa təminat

Azərbaycanın davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilmiş və bu sahədə mühüm tədbirlər görülmüşdür.

«Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)», eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ aktlar əsasında dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşmışdır. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanında modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsi dövlət orqanlarının qarşısında zəruri şərt kimi qoyulmuşdur. Ölkə başçısının fərmanında və müvafiq Dövlət Proqramında nəzərdə tutulan vəzifələrin icrası və sahibkarlara əlverişli biznes mühitinin yaradılması məqsədilə bütün dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin elektronlaşdırılmasına başlanmışdır.

### *«Bir pəncərə»*

2008-ci ildən başlayaraq respublikada sahibkarlığın inkişafına, azad rəqabət prinsipinin formalaşmasına dəstək olaraq sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının «bir pəncərə» prinsipi üzrə təşkili təmin edilmişdir. Elektron hökumətin əsas elementlərindən olan «bir pəncərə» sistemi məlumatların bir mərkəzdə cəmləşdirilməsini, vergi qeydiyyatı da daxil olmaqla, iqtisadi strukturlarda aparılan bütün qeydiyyatların tamamilə sinxronlaşdırılmasını nəzərdə tutur. «Bir pəncərə» sisteminin tətbiqi ilə qeydiyyat prosedurlarının sayı azalmış və vaxt itkisinin qarşısı alınmışdır. Qeydiyyatın bu prinsip üzrə aparılması sahibkarlıq sektoruna marağın güclənməsinə və biznesin inkişafına təkan vermişdir. Digər tərəfdən, «bir pəncərə» sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırmış, sahibkarların dövlət qurumlarından asılılığını azaltmış, çoxpilləli qeydiyyat prosedurlarını xeyli sadələşdirmişdir. Bu isə son nəticədə sahibkarın cəmi bir neçə gündə qeydiyyata alınmasına və fəaliyyətə başlamasına imkan vermişdir. Qeyd edək ki, 2012-ci ilin yanvar-avqust ayları ərzində «bir pəncərə» prinsipi ilə qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı 49 min 140 olmuşdur ki, onlardan 3070-i kommersiya hüquqi şəxsləri, 46070-i isə fiziki şəxslər olmuşdur.

Ümumilikdə 8 ay ərzində vergi orqanlarında qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 49 min 406, ərazi vergilər idarələri üzrə isə 29651 olmuşdur.

### *Elektron vergi xidmətlərindən istifadə genişlənir*

Vergi ödəyicilərinin rahatlığının təmin edilməsi, vergi orqanı ilə ödəyici arasında canlı təmasın, uzun sürən sənədləşmə prosedurlarının minimuma endirilməsi məqsədilə davamlı olaraq Vergilər Nazirliyi tərəfindən bütün vergi xidmətlərinin elektron versiyası hazırlanıb ödəyicilərin istifadəsinə verilmişdir.

Xüsusən elektron bəyannamə sisteminin, POS-terminalların, NKA-ların, fiziki və hüquqi şəxslərin elektron qeydiyyatının, ƏDV depozit hesabının, nəhayət, vergilərin və dövlət rüsumlarının elektron ödəniş sisteminin yaradılması ölkədə vergi ödəyicilərinin vergi öhdəliklərinə əməl etmələri üçün əlverişli şərait yaratmışdır. Statistik göstəricilər və əhali arasında keçirilən sorğular yaradılan elektron xidmətlərdən istifadə səviyyəsinin yüksək olduğunu göstərir. «Elektron bəyannamə» sistemi vergi orqanı ilə vergi ödəyiciləri arasında əlaqələrin tamamilə şəffaflaşmasına gətirib çıxarmışdır. Bu sistemin tətbiqi vergi ödəyicilərində böyük maraq doğurmuşdur. Hazırda ƏDV ödəyicilərinin 99,8%-i, digər vergi ödəyicilərinin isə 90%-dən çoxu bəyannamələrini elektron formada vergi orqanına təqdim edirlər. Təkcə cari ilin yanvar-avqust ayları ərzində vergi ödəyiciləri

tərəfindən 937.318 vergi bəyannaməsi göndərilmişdir ki, onlardan 847. 987-si (90,5%) elektron formada təqdim edilmişdir.

Son zamanlar biznesin qeydiyyatı sahəsində aparılan radikal dəyişikliklərdən biri - fiziki və hüquqi şəxslərin elektron qeydiyyatı da öz müsbət nəticələrini verməkdədir. Belə ki, cari ilin 8 ayı ərzində 46 min 70 fiziki şəxs qeydiyyata alınmışdır ki, onlardan 30 min 415-i elektron qaydada qeydiyyatdan keçmişdir. Qeydiyyata alınan hüquqi şəxslərin sayı isə 211 təşkil etmişdir. Həmçinin, elektron formada qeydiyyata alınan NKA-ların sayı 17078 olmuşdur. Cari ildə elektron ödənişin məbləği 43,5 mln. manat, Vergilər Nazirliyi üzrə ƏDV depozit hesabından büdcəyə ödənilən məbləğ isə 1354,1 mln. manat təşkil etmişdir.

Vergi ödəyicilərinə daha əlverişli şərait yaratmaq məqsədilə Vergilər Nazirliyi, Mərkəzi Bank və bank idarələri arasında hesabların açılması və hesablanmış vergilər üzrə borcların, faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banklara təqdim edilən şəhadətnamə-dublikatların və sərəncamların elektron mübadiləsi aparılmaqdadır. Hazırda 34 bank (77%) Vergilər Nazirliyi ilə elektron mübadiləyə qoşulmuşdur. Nazirliyin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının təşkili şöbəsindən bildirilir ki, hazırda «Kapitalbank» və «Azərbaycan Sənaye Bankı» ASC-lərlə elektron sənəd mübadiləsi istiqamətində test işləri aparılır.

***Ödəyicilər elektron vergi xidmətlərinin səviyyəsindən məmnundurlar***

Qeyd edək ki, Vergilər Nazirliyinin rəsmi internet saytında mütəmadi olaraq keçirilən internet-sorğularda vətəndaşlar nazirlik tərəfindən təqdim edilən elektron xidmətlərin səviyyəsindən məmnun olduqlarını və vergi öhdəliklərini məhz elektron formada həyata keçirməyə üstünlük verdiklərini bildirirlər. Məsələn, müxtəlif sorğularda iştirak edən vətəndaşların 87,27%-i Vergilər Nazirliyi tərəfindən təqdim olunan elektron xidmətlərdən istifadə etdiklərini, 71,17%-i isə mövcud elektron xidmətlərin onları qane etdiyini bildirmişdir. Vergilər Nazirliyinin ödəyicilər üçün yaratdığı elektron qutulardan istifadə intensivliyi də yüksək olmuşdur. Belə ki, sorğuda iştirak edənlərin 56,88%-i hər gün elektron qutudan istifadə etdiyini, 72,27%-i isə bəyannamələrini internet saytı vasitəsilə göndərməyə üsütnlük verdiyini bildirmişdir. Qeyd edək ki, internet-sorğu davam edir. Hazırda aktual mövzulardan biri də ölkədə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə vətəndaşların POS-terminallardan istifadə səviyyəsini öyrənməkdir. Hələlik sorğuda iştirak edənlərin 49,59%-i POS- terminaldan istifadə etdiyini bildirmişdir. Qeyd edək ki, sentyabr ayının 1-nə ümumilikdə 24542 POS-terminal fəaliyyət göstərmişdir ki, onların da 95,4%-i elektron formada qeydiyyatdan keçmişdir.

Arzu İBRAHİMOVA